Bu münasibətlə iyunun 25-də Təhsil Nazirliyində tədbir keçirilib.

Misir Mərdanov tədbiri giriş sözü ilə açaraq Azərbaycanla Dağıstan arasında mövcud olan tarixi və mədəni əlaqələrdən danışıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycan və Dağıstan xalqlarının qardaşlıq, dostluq əlaqələrinə böyük önəm verdiyini vurğulayan Misir Mərdanov bu ənənənin hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Nazir Azərbaycanla Dağıstan arasında təhsil sahəsi üzrə əməkdaşlıq imkanlarının artırılmasının zəruriliyinə də toxunub.

Tədbirdə iştirak edən Dağıstan Respublikasının Azərbaycan nümayəndəliyinin rəhbəri Maqomed Qurbanov Azərbaycan-Dağıstan əlaqələrinin yüksək inkişafından, son illər ölkəmizin müxtəlif sahələrdə əldə etdiyi uğurlardan söz açıb. Qonaq hər iki xalqın dostluq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsində ümummilli lider Heydər Əliyevin böyük xidmətləri olduğunu, dövlətimizin başçısı tərəfindən göstərilən yüksək diqqəti xüsusi vurğulayıb.

Daha sonra Maqomed Qurbanov Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedovun sərəncamına əsasən, təhsil naziri Misir Mərdanova Dağıstan və Azərbaycan respublikaları arasında elmi əməkdaşlığın inkişafına verdiyi böyük töhfələrə görə "Dağıstan Respublikasının Əməkdar elm xadimi" fəxri adının verildiyini bildirib. M.Qurbanov müvafiq diplomu və fəxri adın verilməsi haqqında vəsiqəni Misir Mərdanova təqdim edib.

Təhsil naziri Misir Mərdanov ona verilən bu yüksək fəxri ad üçün Dağıstan Respublikasının rəhbərliyinə, bu respublikanın Azərbaycandakı təmsilçisinə təşəkkürünü bildirib.